

# Malik Əhmədoğlu -50

Dağ Tumas dağlarındakı qüruru, Dağ Tumas çinarındakı əzəməti, Dağ Tumas bulağındakı saflığı, şəffaflığı, duruluğu özündə yaşadan şair-publisist Malik Əhmədoğlunun 50 yaşı tamam oldu.

Yanvarın 6-da "Dirili Qurbani məclisində şair-publisist Malik Əhmədoğlunun 50 illik yubileyi qeyd olundu. Sazlı-sözlü məclisi giriş nitqi ilə məclisin sədri Yusif Dirili açdı, xoş gəldin eləyib, məclisin təşkilat rəhbəri olan Malik Əhmədoğluna təbriklərini çatdırdı. Onu da qeyd etdi ki, bu ilin aprelində "Dirili Qurbani" məclisinin də 15 ili tamam olur və məclisin təşkil olunmasında Malikin də mühüm fəaliyyəti olub.

Məclisin aparılması üçün söz fəlsəfə doktoru Tariyel Abbaslıya verildi. Tariyel müəllim də şair Malik Əhmədoğlu yaradıcılığı barədə mülahizələrini söylədi.

Filologiya üzrə fəlsəfə doktoru Tahir Şirvanlı yubilyarın yaradıcılıq dünyası ətrafında geniş məruzə etdi, M.Əhmədoğlunun şeir və hekayələri, publisistikası ilə bağlı dəyərli fikirlər səsləndirdi. Atası Əhməd kişinin coşğun təbə malik olmasından və bu təbin genetik olaraq Malikdə daşındığından söz açdı. Qardaşı Söhrabın 1992-ci ilin aprelində torpaqlarımızınm azadlığı uğrunda gedən döyüş-



lərdə qəhrəmanlıqla şəhid olmasını və Malik Əhmədoğlu yaradıcılığında bu mövzuda silsilə yazıların özünə yer aldığını bildirib, yubilyara uğurlar arzuladı.

Malikin orta məktəbdə rus dili və ədəbiyyat müəllimi olmuş yazıçı-publisist Nazir Çərkəzoğlu özünəxas pafosla çıxış etdi, onun məktəbli illərindən poeziyaya maraqlı olduğundan və o vaxtlardan şeir yazdığından söz açdı. Eyni zamanda atası Əhməd Xankişioğlunun da kənddə tanınıbseçilən söz-sənət vurğunu olduğunu diqqətə çəkdi. Qardaşı Söhrabın şəhidlik məqamına ucaldığını qeyd etdi və bildirdi ki, Malik məhz bu cür nümunəvi bir ailənin yetirməsi, füsunkar təbiəti olan Dağ Tumas, Cəbrayıl torpağının layiqli övladıdır. Cəbrayılda şair İsmayıl İmanzadənin rəhbəri olduğu "Ümid" ədəbi birliyində fəal çıxışlar etdiyini xatırlatdı. Nazir Çərkəzoğlu orta məktəbdə Malikə dərs demiş şair Vahid Hüseynov məktəbinin yetirməsi kimi də xarakterizə etdi. "Ölməyə qoymayın ümidlərimi", "Söz gərək deyilsin öz zamanında", "Bir də baxacaqmı gözüm dağlara", "Sevincim, qəmim Vətən" kimi şeir kitablarında qələmini poeziyanın əksər janrlarında sınamış, oxucu qəlbinə yol tapmışdır. "İtirilmiş ömür" hekayələr kitabında isə nəsr sahəsində qələmini sınamış, maraqlı əsərlər yazmışdır. "Dağ Tumas şəhidləri" kitabında isə publisistikanın dili ilə kəndimizin şəhid övladlarının qəhrəmanlığından söz açmışdır, - deyən Nazir müəllim mətbuat səhifələrində də onun haqqında çıxış etdiyini diqqətə çatdırdı, yubilyara uğurlar arzuladı, Gəyən düzündə, İnçə dərəsində, Tumas Ata yüksəkliyində görüşmək ümidi ilə fikirlərini tamamladı.

Tədbirdə söz adamları - Fərzalı Abbasəlioğlu, Sabir Şirvan, Əlisahib Əroğul, Rafiq Mirzə, Məmməd Məcidoğlu, Könül İsmayıllı, Zaməddin Ziyadoğlu, Yasin Xəlil, Firudin Şahbuzlu, Nazilə Gültac, Şakir Albalıyev, gənc saz ifaçılarından aşıq Ayişə, aşıq Kənan və başqaları çıxışlar edib, Malik Əhmədoğluna can sağlığı və yaradıcılıq uğurları arzuladılar.

Axırda yubilyar məclisə gələnlərə təşəkkürlərini yetirməklə yeni yazdığı şeirlərdən nümunələr oxudu.

**Şakir əlifoğlu**